

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 112 (23.754)

*23 iyun 2021-ci il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Qarnizonu Qoşunları və Türkiyə Silahlı Qüvvələrinin idarəetmə orqanlarının birgə taktiki-xüsusi təlimi keçirilib





Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən 21-23 iyun tarixlərində Naxçıvan Qarnizonu Qoşunları və Türkiyə Silahlı Qüvvələrinin idarəetmə orqanlarının birgə taktiki-xüsusi təlimi keçirilir.

İyunun 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təlimi izləmişdir.

Təlimdən əvvəl Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev "BAYRAQDAR-TB2" silahlı pilotsuz uçuş aparatının təqdimata hazırlığı barədə raport verdikdən sonra uçuşa hazır olan "BAYRAQDAR-TB2" silahlı pilotsuz uçuş aparatına və döyüş raketlərinə, aparatın saxlanma imkanlarına baxış keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikasında pilotsuz uçuş aparatı sistemləri kursunu müvəffəqiyyətlə bitirən zabit və gizir heyəti ilə görüşmüş, xatirə şəkli çəkdirilmişdir.

Pilotsuz uçuş aparatının taktiki-texniki xassələri haqqında məlumat verilərək bildirilmişdir ki, aparatın kompleksinə müxtəlif növ idarəolunan raketlər daxildir. "BAYRAQDAR-TB2" silahlı pilotsuz uçuş aparatının uçuşlarını təmin edən qüllə, antenlərin taktiki-texniki xassələri haqqında məlumat verilmiş, silahlı pilotsuz uçuş aparatının uçuşa hazırlanması və uçuşu, "BAYRAQDAR-TB2" silahlı pilotsuz uçuş aparatının praktik uçuşların idarəedilməsi izlənilmiş, yerüstü nəzarət və idarəetmə stansiyası təqdim olunmuşdur.



Ali Məclisin Sədri qoşunların idarə edilməsini təmin edən rabitə vasitələrinə və döyüş raketlərinin saxlanılma anbarına baxmış, ultraqısa və qısa dalğalı radiostansiyalar dəsti, döyüşü idarəetmə qrupunun iş yeri, kompleks və mobil rabitə stansiyaları, döyüşü idarəetmə və komanda-qərargah maşınları ilə tanış olmuşdur.

Daha sonra Ali Məclisin Sədri Əlahiddə Ümumqoşun Ordunun Mərkəzi Qərargahında Naxçıvan Qarnizonu Qoşunları və Türkiyə Silahlı Qüvvələrinin idarəetmə orqanlarının birgə keçirilən taktiki-xüsusi təliminin praktik fəaliyyətlərinin icrasını izləmişdir.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev təlimin praktik fəaliyyətlərinin icrasının hazırlığı barədə raport vermiş, döyüşü idarəetmə mərkəzi



haqqında məlumat vermişdir.

Ali Məclisin Sədri zabit heyətini salamlamışdır.

Bildirilmişdir ki, mərkəz fasiləsiz olaraq cari vəziyyəti izləmək, ordu komandanını və qoşunların əməliyyat şəraiti ilə məlumatlandırmaq, əmr və sərəncamlar əsasında qoşunları istiqamətləndirmək, qoşunların və düşmən bölmələrinin fəaliyyətlərini real zamanda izləmək məqsədilə yaradılmışdır.

Taktiki-xüsusi təlimin planı ilə tanışlıq zamanı bildirilmişdir ki, təlimin keçirilməsində məqsəd vahid rabitə sistemi çərçivəsində idarəetmə orqanları arasında qarşılıqlı əlaqəni yaratmaq, müxtəlif vasitələrdən istifadə etməklə informasiya mübadiləsini müxtəlif səviyyəli qərargahlar arasında təmin etmək, silahlanmada olan pilotsuz uçuş aparatlarının və texniki kəşfiyyat vasitələrinin görüntülərinin vahid informasiya şəbəkəsinə inteqrasiyasını təmin etmək, idarəetmə və silah sistemləri arasında qarşılıqlı əlaqənin təşkili üsullarını təkmilləşdirməkdən ibarətdir.

Planla tanışlıqdan sonra təlimə start verilmişdir.

Təlimin ssenarisinə əsasən Əlahiddə Ümumqoşun Ordunun daxili şəbəkəsində yaradılmış videokonfransda təlimə cəlb olunan birləşmə və hissə komandirləri iştirak etmiş, əvvəlcədən göndərilmiş döyüş sərəncamına uyğun olaraq yaranmış vəziyyəti məruzə etmişlər.



Təlim mərkəzində düşmənin artilleriya batareyasını təqlid edən batareya atəş mövqeyini tutaraq ön xətt bölmələrimizə atəş zərbələri endirmişdir. Düşmənin bu fəaliyyəti "BAYRAQDAR-TB2" pilotsuz uçuş aparatından izlənilərək, artilleriya batareyasının koordinatları döyüşü idarəetmə mərkəzindən məhv edilməsi üçün aidiyyəti üzrə artilleriya bölmələrinə ötürülmüşdür. Hərəkətdə olan düşmən kolonunu aşkar edən xüsusi təyinatlı qrupumuz pilotsuz uçuş aparatı ilə əlaqə yaradaraq "Pusqu"nun icrası üçün qrupun istiqamətləndirilməsini, yaxınlaşan düşmənin tərkibini, kolonun düzülüş ardıcıllığını, yaxınlıqda olan düşmənin digər bölmələrinin fəaliyyətini öyrənmişdir. Eyni zamanda ərazidən uzaqlaşmaq üçün coğrafi analiz sistemindən istifadə etməklə qrupa doğru hərəkət edən helikopterlə xüsusi təyinatlı qrup arasında qarşılıqlı əlaqə yaradılmışdır.

Əlahiddə Ümumqoşun Orduda ərazinin, hava şəraitinin və relyefin planlaşdırma zamanı əməliyyatlara təsirini qiymətləndirmək, qoşunların idarəedilməsi və fəaliyyətlərinə nəzarətin təşkili məqsədilə Coğrafi Analiz Sistemindən istifadəyə başlanmışdır.

Türkiyənin "PİRİREİS" informasiya texnologiyaları şirkətinin texniki müdiri Adil Yoltay coğrafi analiz sistemi haqqında məlumat verərək bildirmişdir ki, sistem dünya üzərindəki kompleks ictimai, iqtisadi, ekoloji və digər problemlərin həllinə əsaslanan, qərarvermə müddətlərində istifadəçilərə kömək etmək üçün irihəcmli coğrafi məlumatların toplanılması, saxlanılması, işlənilməsi, yenilənməsi, obyektlərin təhlili, sorğulanması və əks etdirilməsi funksiyalarını yerinə yetirən təchizat, proqram təminatı, coğrafi məlumat mənbələrinin məcmusudur. Coğrafi Analiz Sistemi obyektləri yüksək görüntü keyfiyyəti ilə və dəqiq koordinatlarla, üçölçülü formatda təqdim edən, istifadəsi asan, sürətli, eləcə də təhlükəsiz sistemdir. Naxçıvan Muxtar Respublikasının istənilən ərazisindəki bitki örtüyünün inkişafı və vəziyyəti, bölgənin daha sıx və yaşıl bitki sahəsi, su hövzələrinin səviyyəsi, bitki sahələrindəki rütubətin səviyyəsi Coğrafi Analiz Sistemində əks etdirilmişdir.

*Ardı 2-ci səhifədə*

Ali Məclisin Sədri Coğrafi Analiz Sisteminin yaradılmasına görə heyətə təşəkkür etmişdir.

Sonra “Qarabağlar Dağ” təlim mərkəzində keçirilən artilleriya batareyasının taktiki təlimində atəş mövqeyini tutmaq üçün hərəkətdə olan batareyanın düşmənin artilleriya atəşinə məruz qaldıqda göstərəcəyi praktik fəaliyyəti izlənilmişdir. Düşmənin müdafiə dərinliyimizə sızıb keçmiş kəşfiyyat diversiya qrupunun Daxili Qoşunların Əlahiddə Əməliyyat Briqadasının bölmələrinin pilotsuz uçuş aparatının köməyi ilə aşkar və məhv edilməsi üçün qarşılıqlı əlaqədə fəaliyyəti icra olunmuşdur.

Dövlət sərhədinin pozulması hallarının qarşısının alınması üzrə Naxçıvan Qarnizonu Qoşunlarının hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqə planına uyğun olaraq sərhədi pozmağa cəhd edən qrupun zərərsizləşdirilməsi üzrə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının bölmələrinin fəaliyyəti müşahidə



edilmişdir. Sərhəd pozuntusu barədə məlumat alındığı andan sərhəd bölgəsində pilotsuz uçuş aparatı ilə sərhəd pozucularının yeri aşkar edilmiş, koordinatları müəyyən edildikdən sonra məlumat “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandanlığına ötürülmüşdür. “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası komandirinin qəbul etdiyi qərara əsasən çevik hərəkət taborunun aidiyyəti üzrə bölməsi helikopter vasitəsilə əraziyə endirilərək sərhəd pozucularını zərərsizləşdirmişdir.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev döyüşü idarəetmə mərkəzinin təkmilləşdirilməsi istiqamətində planlaşdırılan tədbirlər haqqında məlumat vermişdir.

Sonra Ali Məclisin Sədri qərar qəbul edilmə, görüntü izləmə otaqlarına baxmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Muxtar respublikada müasir tələblərə cavab verən dövlət qulluğu sistemi formalaşdırılıb



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 5 may tarixli Sərəncamına əsasən hər il iyunun 23-ü ölkəmizdə Dövlət Qulluqçularının Peşə Bayramı Günü kimi qeyd olunur.*

Ölkəmizdə dövlət qulluğu sisteminin formalaşması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin xalqın təkidli tələbi ilə ikinci dəfə ali hakimiyyətə qayıdışı ilə ölkəmizdə ictimai-siyasi sabitlik bərqərar edilmiş, dövlət idarəçiliyinin yeni əsasları formalaşdırılmış və Azərbaycan davamlı inkişaf yoluna qədəm qoymuşdur. Dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi və demokratikləşdirilməsi prosesinə başlanılmış, dövlət qulluğu sahəsində islahatlar həyata keçirilmiş, zəngin qanunvericilik bazası yaradılmışdır.

Azərbaycanda dövlət qulluğu sahəsində aparılan islahatların ən mühüm nəticələrindən biri 2000-ci il iyulun 21-də “Dövlət qulluğu haqqında” Qanunun qəbul edilməsidir. Həmin qanunla Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulmuş, bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri, onların hüquq və vəzifələri müəyyənləşdirilmişdir. “Dövlət qulluğu haqqında” Qanun qəbul edildikdən sonra mütəmadi olaraq təkmilləşdirilmiş, 180-dən artıq dəyişikliklə mükəmməl bir hüquqi akt yaradılmışdır.

Ümummilli liderin dövlət qulluğu siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının imzası ilə mühüm Dövlət proqramları təsdiq olunmuş, dövlət qulluğu sahəsində mütərəqqi normativ-hüquqi baza formalaşdırılmış, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları vaxtında aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizmi yaradılmış, dövlət qulluğu sahəsində münasibətlərin tənzimlənməsi daim nəzərdə saxlanılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya”nın təsdiq edilməsi bunun bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublikada dövlət qulluğu sahəsində uğurlu islahatlar aparılmış, müasir dövlət idarəçilik sistemi formalaşdırılmışdır. Həyata keçirilən islahatları iki qrupa ayırmaq olar. Birinci istiqamət dövlət qulluğu sahəsində institusional islahatların həyata keçirilməsi ilə bağlıdır. Bu məqsədlə qanunvericiliklə müəyyən edilmiş dövlət siyasətini və tənzimlənməni həyata keçirən dövlət orqanları yaradılmış və onların normal fəaliyyət göstərməsi təmin olunmuşdur. Dövlət idarəçiliyində innovasiyalar tətbiq edilmiş, “Elektron hökumət” portalı, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi sistemləri istifadəyə verilmiş, bəzi dövlət orqanları üzrə səyyar xidmətlər təşkil olunmuş, “ASAN xidmət” Mərkəzi yaradılmışdır. Dövlət orqanları üçün ən müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmiş, maddi-texniki baza gücləndirilmiş, dövlət qulluqçularının fəaliyyəti yaxşılaşdırılmış, onlara lazımi iş şəraiti yaradılmışdır. Bütün bunlar Naxçıvan Muxtar Respublikasında insan amilinə verilən dəyərin göstəricisidir.

Dövlət qulluğu sahəsində islahatların ikinci istiqaməti isə müasir tələblərə cavab verən kadr siyasətinin həyata keçirilməsidir. Kadr siyasətinin əsas məqsədi dövlətə və cəmiyyətə xidmət üçün lazımi keyfiyyətlərə malik dövlət qulluqçularının formalaşdırılması, habelə dövlət qulluğu sferasının yüksək peşəkarlığa malik, vicdanlı, məsuliyyətli və vətənə sədaqətli işçilərin cəlb olunmaqla komplektləşdirilməsidir. Qeyd olunan məqsədlərə nail olmaq üçün muxtar respublikada yeni məktəb binaları, ali və orta ixtisas təhsili müəssisələri üçün yeni tədris korpusları tikilmiş, təhsil müəssisələrində tədris müasir standartlara uyğunlaşdırılmış, maddi-texniki baza möhkəmləndirilmiş, mütəxəssis və kadrların hazırlığı üçün hərtərəfli şərait yaradılmışdır. Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə bağlı Ali Məclis Sədrinin 2015-ci il 27 iyul və 2019-cu il 3 aprel tarixli sərəncamları dövlət orqanları və təhsil müəssisələri arasında əlaqələrin genişlənməsinə, insan kapitalının inkişafına, dövlət qurumlarının ixtisaslı kadrlarla təmin olunmasına imkan vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 22 aprel tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın yaradılması bu istiqamətdə həyata keçirilən islahatların ən vacib tərkib hissəsidir. Muxtar respublikada dövlət qulluğu sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 18 dekabr tarixli Fərmanı ilə komissiyanın əsasında Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi yaradılıb. Mərkəzin yaradılmasında əsas məqsəd dövlət qulluğu sahəsində qəbul edilmiş normativ-hüquqi aktların muxtar respublikada tətbiqinin təşkil edilməsi, dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsi, yerləşdirilməsi, dövlət qulluqçularının etik davranış qaydalarına əməl olunmasına nəzarət edilməsi, dövlət qulluqçularının əlavə təhsili, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən yaradılmış digər dövlət orqanlarında və publik hüquqi şəxslərdə işə qəbul, attestasiya, sertifikasiya və qiymətləndirmənin həyata keçirilməsi sahəsində qanunvericiliklə nəzərdə tutulmuş siyasətin həyata keçirilməsinin təmin edilməsidir.

Dövlət İmtahan Mərkəzində test mərkəzinin, lokal kompüter şəbəkəsinin, mərkəzi server sisteminin mövcudluğu innovasiya və startapların tətbiqini mümkün etmişdir. Test imtahanı proqramı, Dövlət Qulluqçuları Reyestrinin aparılması proqramı, test və müsahibələrdə iştirak üçün onlayn qeydiyyat proqramı istifadəyə verilmişdir. Dövlət İmtahan Mərkəzinin portalının və yeni proqram təminatının istifadəyə verilməsi vətəndaşların dövlət qulluğuna qəbul üçün müraciət etmək imkanlarının asanlaşdırılmasına, vaxt və maliyyə itkisinin qarşısının alınmasına, mərkəzə gəlmədən və əlavə sənəd təqdim etmədən “şəxsi kabinet” vasitəsilə internet üzərindən qeydiyyatdan keçməklə test və müsahibələrdə iştirakına şərait yaratmışdır.

Bu gün muxtar respublikada vətəndaşların dövlət qulluğuna müsabiqə və şəffaflıq əsasında qəbulu üçün lazımi şərait mövcuddur. Belə ki, indiyədək keçirilmiş 21 müsabiqədə 6664 namizəd iştirak etmiş, onlardan 1295-i müsabiqələri müvəffəqiyyətlə başa vuraraq dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinə təyin olunmuşdur.

Mərkəz tərəfindən dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqələrin test imtahanları da keçirilir. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər, Ədliyyə, Fövqəladə Hallar nazirlikləri, muxtar respublika Prokurorluğu, Dövlət Gömrük Komitəsi, Vergi, Miqrasiya, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət xidmətlərində vakant vəzifələrin tutulması və Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının üzvlüyünə qəbul üçün indiyədək keçirilmiş 52 müsabiqədə iştirak edən 2410 namizəddən 794-ü test imtahanlarında müvafiq keçid balını toplamışdır. Bundan başqa, dövlət qulluğuna qəbulun şəffaflıq əsasında keçirilməsi prinsipi digər sahələrə də tətbiq edilmişdir. 2018-ci ildən dövlət ümumi təhsil müəssisələrinə, 2019-cu ildən isə dövlət musiqi təhsili müəssisələrinə, eləcə də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinə, 2020-ci ildən dövlət səhiyyə müəssisələrinə işə qəbul, attestasiya və sertifikasiya mərkəzləşdirilmiş qaydada, Dövlət İmtahan Mərkəzinin proqram təminatı vasitəsilə həyata keçirilib, test imtahanlarında 11099 nəfər iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki müəssisələrə, dövlət teleradio və mətbuat orqanlarına, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə və “Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinə işə qəbul qaydaları təsdiq olunmuş və bu istiqamətlər üzrə imtahanların təşkili və keçirilməsi də Dövlət İmtahan Mərkəzinə həvalə edilmişdir.

Hər il məhkəmə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının əməkdaşları üçün etik davranış qaydalarına riayət olunması, kargüzarlığın, dövlət qulluqçularının reyestrinin və şəxsi işlərinin aparılması qaydaları və digər mövzularda keçirilən seminarlarda yüzlərlə inzibati vəzifə tutan dövlət qulluqçusu iştirak edir. “Səyyar dövlət qulluğu xidməti könüllülüyü” layihəsi çərçivəsində rayonlarda yaşayan, internet və informasiya-kommunikasiya texnologiyalarından istifadə edə bilməyən və elektron xidmətlərdən istifadə etməkdə çətinlik çəkən vətəndaşlara yaşadıqları yerlərdə səyyar xidmət göstərilir. Gənc dövlət qulluqçularını intellektual fəaliyyətə cəlb etmək, onlar arasında bilik və elmin nüfuzunu artırmaq məqsədilə intellektual oyunlar keçirilir.

Həyata keçirilən uğurlu kadr islahatları nəticəsində muxtar respublikamızda dövlət qulluqçularının yaş tərkibi getdikcə cavanlaşdırılır, təcrübəli işçilərlə yanaşı, gənclərə də geniş yer verilir. Bu, dövlət idarəçiliyində öz müsbət nəticəsini göstərməkdədir. Dövlət Qulluqçuları Reyestrinin məlumatlarına əsasən muxtar respublikanın dövlət orqanlarında 2469 nəfər fəaliyyət göstərir ki, onların 56-sı siyasi, 1947-si inzibati, 466-sı isə yardımçı vəzifə tutur. Dövlət qulluqçularının 25 faizini gənclər, 23 faizini isə qadınlar təşkil edir.

Keçirilən müsabiqələrdə iştirak edənlərin sayının ildən-ilə artması onu göstərir ki, bu sahədə həyata keçirilən dövlət siyasəti öz bəhrəsini verir və vətəndaşların, xüsusilə gənclərin dövlət qulluğuna, o cümlədən dövlət qulluğunun xüsusi növünə aid orqanlara marağı artır. Muxtar respublikada bütün sahələrdə olduğu kimi, dövlət qulluğu sahəsi də öz intibah dövrünü yaşayır. Bütün uğurların təməlində isə ümummilli lider Heydər Əliyev yoluna sadiqlik və bu yolun uğurla davam etdirilməsi dayanır.

Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının günün tələblərinə uyğun fəaliyyət göstərməsi üçün hərtərəfli şərait yaradılmış, dövlət qulluqçuları qayğı ilə əhatə olunmuş, öz fəaliyyəti ilə fərqlənənlər təltif edilmişlər. Bu gün dövlət qulluqçularının sosial müdafiəsi, onların mənzilməişət şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır, muxtar respublikanın şəhər və rayonlarında “Gənclər” şəhərcikləri və yeni yaşayış binaları inşa edilir. Bütün bunlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən dövlət qulluqçularına göstərilən qayğının və insan amilinə verilən dəyərin bariz nümunəsidir.

Göstərilən qayğının müqabilində hər bir dövlət qulluqçusu bundan sonra da səylə çalışmalı, ölkəmizin, muxtar respublikamızın inkişafı və tərəqqisinə öz töhfəsini verməlidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“...Müstəqil Azərbaycan Respublikasında dövlət qulluğunda çalışmaq hər bir insan üçün son dərəcə şərəfli işdir. Bu o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır”.***

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət İmtahan Mərkəzinin***
***mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin konfransı keçirilib

*İyunun 22-də Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin konfransı keçirilmişdir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli konfransın gündəliyində duran məsələlər barədə məlumat vermişdir. Bildirilmişdir ki, konfransın gedişi zamanı əvvəlcə Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin hesabatı dinləniləcək, daha sonra birliyin yeni İdarə Heyətinin üzvləri və qurumun sədri seçiləcək, Nəzarət-Təftiş Komissiyasının tərkibi müəyyənləşəcəkdir.

Konfransın gündəliyi qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin sədri Tural Bağırovun hesabatı dinlənilmişdir. Bildirilmişdir ki, Aşıqlar Birliyi muxtar respublikada keçirilən yubiley və bayram tədbirlərində, konsert proqramlarında, festivallarda, Novruz bayramı şənliklərində, həmçinin tarixi və əlamətdar günlərdə hərbi hissələrdə təşkil olunmuş tədbirlərdə iştirak etmişdir. Birliyin 5 hesabat konserti, şair və aşıqlara həsr olunmuş 8 xatirə gecəsi, 1 onlayn konsert və Aşıq Ələsgərin 200 illiyi ilə əlaqədar saz müsabiqəsi keçirilmişdir. Bakı şəhərində keçirilən 2 konsert və 1 festivalda birliyin üzvləri iştirak etmişdir. Aşıqlar Birliyi tərəfindən Naxçıvan Musiqi Kollecinin Aşıq sənəti ixtisası üzrə təhsil alan tələbələri ilə aşıqların 3 görüşü təşkil edilmişdir. Son illər fəxri adlarla təltif olunan mədəniyyət işçilərinin arasında Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin üzvləri də vardır. Tural Bağırov fəaliyyətləri üçün yaradılan şəraitə görə birliyin üzvləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.



Hesabat məruzəsindən sonra İdarə Heyətinin yeni tərkibi seçilmişdir.

Birliyin İdarə Heyətinin üzvləri Aydın Cəfərov və Zeynab Yusifova çıxış edərək Bağırov Tural Vidadi oğlunun Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin sədri vəzifəsinə namizədliyini irəli sürmüşlər.

Təklif səsə qoyularaq qəbul olunmuş və Tural Bağırov Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin sədri seçilmişdir.

Tural Bağırov ona göstərilən etimada görə birlik üzvlərinə minnətdarlığını bildirmişdir.

Daha sonra Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin Nəzarət-Təftiş Komissiyasının tərkibi seçilmiş, konfransın qərarı qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli konfransda çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasında aşıq sənətinin inkişafı və təbliği mədəni sahədə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq dövlət qayğısı ilə əhatə olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı, 2012-ci ilin muxtar respublikada "Milli dəyərlər ili" elan olunması, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında 2021-ci il 22 fevral tarixli Sərəncamı bu sahədə görülən işlərin tərkib hissəsidir. Ali Məclis Sədrinin diqqət və qayğısı ilə 2009-cu ildə muxtar respublikada istedadlı aşıqları bir araya gətirən Naxçıvan Aşıqlar Birliyi yaradılmış və fəaliyyəti təmin edilmişdir. Bundan əlavə, Naxçıvan Musiqi Kollecində Aşıq sənəti ixtisası açılmış, ixtisas Aşıqlar Birliyinin hamiliyinə verilmişdir. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Yaradıcılıq ittifaqları və birliklərinin fəaliyyəti ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 20 may tarixli Sərəncamına əsasən Aşıqlar Birliyinə dövlət qayğısının daha da artırılması məqsədilə vəsait ayrılmışdır.

Ülvi Hüseynli bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qarşıya qoyduğu vəzifələr əsas fəaliyyət istiqaməti olmalıdır. Aşıqlar Birliyi aşıq sənətinin zənginləşməsi və təbliği istiqamətində bundan sonra da fəaliyyətini gücləndirməli, gənc istedadların yaradıcılıq qabiliyyətinin formalaşmasına kömək etmək məqsədilə saz-söz məclisləri, müsabiqə və tədbirlər keçirməlidir. Təşkilata yeni üzvlər qəbul olunmalı, hesabat konsertləri, tanınmış aşıqların xatirə gecələri, musiqi təhsili müəssisələrində ustad dərslərin keçilməsi davam etdirilməlidir. Bununla yanaşı, Yazıçılar Birliyi və Bəstəkarlar Təşkilatı ilə birlikdə layihələr hazırlamalı və həyata keçirməlidir.

**"Şərq qapısı"**

## Keyfiyyətli yerli məhsullar istehlak bazarında aparıcı mövqe tutur

Əhalinin sağlamlığının və alıcılıq qabiliyyətinin qorunub saxlanılması, keyfiyyətli yerli məhsulların istehsalının təşviqi Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qarşısına qoyulmuş mühüm və təxirəsalınmaz vəzifələrdəndir.

May ayında da məhsul göstəricilərinin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğunluğu diqqətdə saxlanılmış, ümumilikdə, məhsul nümunələrinin 91 halda, o cümlədən qida məhsullarının 77 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış və bu istiqamətdə nöqsan aşkar edilməmişdir.

Yüksəkkeyfiyyətli bal və digər arıçılıq məhsulları gəlirliliyinə və faydalılığına görə aqrar sahədə mühüm yer tutur. Ötən ay Kəngərli rayonunun Çalxanqala, Şahbuz rayonunun Sələsüz kəndlərində arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirmə xarakterli görüşlər keçirilmiş, müvafiq standart üzrə bal məhsulunun tərkibində saxarozanın və nəmliyin yolverilən həddinə dair məlumatlar çatdırılmışdır.

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı"nın icrasına uyğun olaraq emal edilmiş kənd təsərrüfatı məhsullarının 27 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri aparılmış, nəticələrin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğunluğu müəyyən olunmuş və müvafiq məhsulların 3 halda sertifikatlaşdırılması həyata keçirilmişdir.

Kənd təsərrüfatının digər sahələri kimi, meyvəçiliyin və tərəvəzçiliyin inkişafı da diqqət mərkəzində saxlanılır. May ayında meyvə və tərəvəz məhsullarının 15 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış, nəticələrin texniki normativ-hüquqi aktların və standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Muxtar respublika iqtisadiyyatında ailə təsərrüfatı modelinin dəstəklənməsi işi davam etdirilməkdədir. Hesabat ayında Babək şəhərində İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin, AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə birlikdə ailə təsərrüfatları üçün seminar-müşavirə keçirilmiş, "Naxçıvan qovurması"nın istehsalının genişləndirilməsi, kiçikhəcmli taralarda qablaşdırılması və ixracının dəstəklənməsi, meyvə və tərəvəzlərin, bostan məhsullarının qurudulması, qablaşdırılması, etiketlənməsi ilə bağlı 20 ailə təsərrüfatına maarifləndirici bukletlər və "Naxçıvan qovurması" əmtəə nişanlı etiketlər təqdim olunmuşdur. Ötən ay muxtar respublika üzrə 5 ailə təsərrüfatına istehsal etdiyi məhsulların etiketlərində məhsulun adının və digər məlumatların orfoqrafik qaydalara uyğun yazılmasını, saxlanma şəraitinin və yararlılıq müddətinin qüvvədə olan standartların tələblərinə uyğun göstərilməsini təmin etmək məqsədilə metodik köməklik göstərilmişdir. Həmçinin "Göycə məhsullarının satış yarmarkası"nda satışa çıxarılan məhsulların üzərinə vurulması üçün 270 etiket ailə təsərrüfatlarına təqdim olunmuşdur. Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarətin aparılması üçün ay ərzində İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə birgə məhsullardan 15 halda nümunələr seçilərək laboratoriyaya təqdim olunmuş, sınaqların nəticələrinin texniki normativ-hüquqi aktların və standartın tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Alkoqollu içkilər istehsal edən 3 müəssisədə istehsal olunan araqın 2, pivənin 1 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin texniki normativ-hüquqi aktların və standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Ötən ay 1 sınaq laboratoriyası akkreditasiya olunmuş, qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən 1 subyekt qeydiyyata alınaraq dövlət reyestrinə daxil edilmiş, təsərrüfat subyektlərinə 23 sertifikat, lisenziya alınması üçün 7 təsdiqedici sənəd verilmişdir.

"Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı"nın müvafiq bəndlərinin icrası istiqamətində muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində sahibkarlıq subyektlərinin və ailə təsərrüfatlarının iqtisadi aktivliyi ardıcıl qaydada dəstəklənmiş, digər bölgələrimizdə fəaliyyət göstərən "Naxçıvan məhsulları" mağazalar şəbəkəsinə tələbata uyğun olaraq davamlı qaydada məhsulların göndərilməsi təmin olunmuşdur.

Verilmiş tapşırıqların və qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində tədbirlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

## Elin varı toplanılır

Muxtar respublikada aparıcı əkinçilik sahəsinə çevrilən taxılçılığın inkişafı və bu istiqamətdə kompleks tədbirlərin keçirilməsi diqqət mərkəzində saxlanılır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə müasir kənd təsərrüfatı texnikaları və texnoloji avadanlıqlar gətirilir, meliorasiya-irriqasiya işləri aparılır, taxılçılara güzəştli şərtlərlə kreditlər verilir, onlar yüksək reproduksiyalı toxum sortları ilə təchiz olunur, taxıl anbarları qurulur və ya mövcud olan anbarların sahələri genişləndirilir. Ona görə də ilbəil əkin sahələri genişləndirilir, məhsul istehsalı artır, daxili bazarın yerli taxılla təminat səviyyəsi gücləndirilir.



Qeyd edək ki, 2021-ci ilin məhsulu üçün ötən ilin payızında və cari ilin yazında muxtar respublikada 32721 hektar sahədə taxıl əkilib. Ötən dövrdə torpaq mülkiyyətçiləri tələb edilən bütün aqrotexniki tədbirləri həyata keçiriblər.

Artıq bir neçə gündür ki, taxıl tədarükünə start verilib. İlkin nəticələr belə deməyə əsas verir ki, çəkilən zəhmət hədər getməyib, sahələrdə bol məhsul yetişib. İyun ayının 21-də olan məlumata görə, 6131 hektar sahənin məhsulu tədarük edilib, 17403 ton məhsul götürülüb. Hektarın orta məhsuldarlığı hələlik 28,4 faiz təşkil edir.

Qeyd edək ki, əvvəlcədən görülən hazırlıq tədbirləri öz bəhrəsini verir. Bu isə taxıl tədarükünün optimal müddətdə başa çatdırılacağına əminlik yaradır.

***Xəbərlər şöbəsi***

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini may ayında da davam etdirib, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılıb.***

## Əhalinin sağlamlığı diqqət mərkəzində saxlanılır

Ötən ay Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən dializ olunan xroniki böyrək çatışmazlığı olan xəstələr üçün dializ materialları və dərman preparatları, Azərbaycan Respublikası Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutundan Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinə Genexpert cihazı üçün reaktivlər, dərman preparatları, Azərbaycan Respublikası QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə Mübarizə Şöbəsinə reaktivlər, test və tibbi materiallar, ARV terapiya üçün dərman preparatları, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən və Respublika GEM-dən COVID-19-a görə vaksinasiya üçün vaksin, şpris və işlənmiş şprislərin təhlükəsizliyi üçün konteynerlər gətirilib.

Tibb işçilərinin peşə bacarıqlarının yüksəldilməsi istiqamətində tədbirlər də davam etdirilib. Belə ki, 4 həkim Bakı şəhərinə kurs, 1 həkim və 1 orta tibb işçisi Naxçıvan şəhər tibb müəssisələrində iş yerində təcrübə keçməsi üçün göndərilib.

Ötən ay Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzində 396 həkim və orta tibb işçisi vəzifəsi müsabiqəyə çıxarılıb, 116 namizəddən 108-i müsabiqədə iştirak edib, 71 namizəd uğurlu nəticə qazanıb.

Hesabat ayında Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılan imkanlar hesabına əhalinin tibbi müayinəsini uğurla davam etdiriblər. Xəstəxananın həkim briqadası tərəfindən Sədərək rayonunda 152, Culfa şəhərində evdə baxıma ehtiyacı olan ahıl yaşlı və yataq xəstələrindən 19 nəfər hərtərəfli tibbi müayinədən keçirilib. Xəstəxananın göz həkimləri tərəfindən muxtar respublikanın ayrı-ayrı rayonlarında şəkərli diabet xəstəliyindən əziyyət çəkən 152 xəstənin göz dibinin müayinəsi, Bakı şəhərindən xəstəxanaya dəvət olunmuş LOR həkimi tərəfindən 12 nəfərdə müayinə və 12 nəfərdə cərrahi müdaxilə aparılıb.

Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin həkim briqadası tərəfindən Culfa Rayon Mərkəzi Xəstəxanasında təşkil edilən humanitar tibbi aksiyada 252 müayinə həyata keçirilib. Müraciət edənlərə endokrinoloq, nevropatoloq, ürək-damar cərrahı, ümumi cərrah, nefroloq və digər ixtisas həkimləri tərəfindən tibbi xidmət göstərilib.

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri Şahbuz rayonunun Nursu, Keçili və Külüs kəndlərində təhsil işçilərindən 31 nəfər qadında və kənd sakinlərindən 28 qadında süd vəzinin profilaktik müayinəsini həyata keçiriblər. 5 nəfərdə patologiya aşkar olunaraq onlar Onkoloji Mərkəzə ətraflı müayinə və müalicəyə dəvət edilib.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim briqadası Şahbuz rayon Biçənək kəndində 11 nəfərdə laboratoriya, 20 nəfərdə USM, 20 nəfərdə ginekoloji, 10 nəfərdə pediatrik müayinələr aparıb, Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin 24 qadın işçisini isə USM müayinəsindən keçirib.

Muxtar respublikanın təhsil müəssisələrində şagirdlərin pediatr, oftalmoloq, stomatoloq, ortopedlər tərəfindən kütləvi müayinəsi başa çatıb, 45 min 482 nəfərdə müayinə aparılıb, 4 min 97 nəfər dispanser qeydiyyata alınıb.

Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkim briqadası Şahbuz Rayon Mərkəzi Xəstəxanasında, Babək rayon Cəhri qəsəbəsi 1 nömrəli tam orta məktəbdə, Naxçıvan şəhər 11 və 15 nömrəli tam orta məktəblərdə, Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbində IX, X və XI sinif şagirdlərindən 554 nəfəri səyyar flüoroqrafiya müayinəsinə cəlb edib, xəstə aşkar olunmayıb.

Ötən ay Naxçıvan Muxtar Respublika Xəstəxanasının Qan Bankında Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və qurumların əməkdaşlarının iştirakı ilə birgə 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə könüllü qanvermə aksiyası keçirilib. 33 nəfərdən 16,5 litr qan tədarük edilib.

May ayında COVID-19 xəstəliyinə qarşı profilaktika məqsədilə 13 min 461 nəfərə I tur və 7 min 876 nəfərə II tur vaksinasiya aparılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***



Müasirləşən kəndlərimiz

# İnkişafı ilə qürurlandığım ata-baba yurdum – Qahab

***Yenə görüşünə gəlmişəm, ata-baba yurdum, doğma kəndim Qahab. Səninlə söhbətləşmək, ötən günlərə dönmək, bu gününə nəzər salmaq, yenidən doğmalaşmaq, körpə uşaqtək qoynuna sığınmaq üçün gəlmişəm. Harada yerləşməyini, sənə gəlmək üçün hansı yolları qət etməyin lazım olduğunu izah etmək istəmirəm. Çünki bunu bilənlər bilir, bilməyənlər isə dost-tanışdan, internetin imkanlarından istifadə edib məlumat ala bilər. Gəl səmimi söhbət edək. Bilirəm ki, sənin də deməyə çox sözün var. Hər şey vaxta baxsa da, vaxt heç nəyə baxmır. Vaxt keçdikcə sən də dəyişmisən, gözəlləşmisən, böyümüsən. Aramızdakı danışığa bir isim də qoyaq: övlad, ana söhbəti. Çünki sən ana Vətənin bir parçasısan. Söhbətimizi qələmə almağı, tarixləşdirməyi özümə övlad borcu bilirəm.***

Sirabın, Qaradaşın, Əshabi-kəhfin, Haçadağın fonunda qürurla, əzəmətlə dayanan yurdum mənim. Bəlkə də, adını saydığım bu dörd təbiət abidəsi Naxçıvan torpağının heç bir yerindən belə nizamlı, səliqəli görünmür. Bir-biri ilə, sanki qolboyundur, Qahaba arxa-dayaqdır, ucu buludlara toxunan vüqardır bu dağlar. Uşaqlığım, gəncliyim Qahab. “Təktəpə”dən, “Qahab gölü”nün ən hündür yerindən durub seyr edirəm səni, göz gəzdirirəm həyət-bacalara. Üzüm yarpağı, cürbəcür meyvələr, kəklikotu toplayanları görən zaman deyirəm: əvvəlki səxavətindən, ürəyiaçıqlığından heç nə itirməmisən. Bir valideyn kimi övladlarının, doğmalarının qayğısını çəkirsən.

Biz elə bu qayğınla, sığalınla böyüdük, boya-başa çatdıq. Deyirəm, zaman nə yaman tez keçdi, doğma kəndim. Sanki dünən idi, məhəlləmizdə, küçə-bacamızda dostlarımızla, həmyaşıdlarımızla “Bənövşə, bizdən sizə kim düşə?”, “Gizlənqaç”, “Ocaq yandı, su qaynadı” oynamağımız. Təndir qalayıb, ocaq salanda analarımızın, nənələrimizin “ay bala, oğlan uşağı təndirə gəlməz”, ya da ki, “kim təndirdən təzə çıxan çörəyin qızarmış hissəsini yesə, pul tapacaq” deyimlərinə uşaq ağlı, uşaq saflığı ilə inandığımız günlər çox tez yox oldu. Ömrümüzdən illər ötdü və biz gözümüzü açıb gördük ki, daha böyümüşük. “Hərdələr”də, “Yellicə”də, Sirab dağının ətəyində qoyun-quzu otarmaq vaxtlarımız keçib. Bəzən təktənha olanda, özüm-özümlə danışanda düşünürəm ki, biz elə zəhməti də, əməyi sevməyi də bu cür öyrəndik. Yeri gələndə uşaqlar arasında növbə təşkil edib heyvanımızı otardıq, yeri gələndə böyüklərimizlə birgə arılarımızı kəndbəkənd dağdan arana, arandan dağa köçürdük, əlimizə bel alıb taxıl sahəmizi suvardığımız vaxtlar da oldu. Bir sözlə, çörəyi zəhmətlə, əlin qabarı ilə qazanmağın yollarını mənimsədik.

Doğma kəndim, bilirəm, sən unutqan deyilsən, xatırlayırsan o şirin, yaddaqalan uşaqlıq xatirələrimizi. Hər məhəllən, hər döngən bizə ötənlərdən, olub keçənlərdən “danışır”. O günləri yada salarkən hərdən çöhrəmizdə xoş təbəssüm yaranır, hərdən dərin bir köks ötürürük. Yenə də uşaq olub “Məşədi Vəli”, “Yuxarı məktəb” bulağından anam üçün su daşımaq istəyirəm. Novruz bayramında uşaqlarla birgə Qahabın aşağı məhəllələrinə qədər təngnəfəs qaçdığımız, tanımadığımız evlərə, ocaqlara belə, papaq atdığımız günlərin həsrəti ilə yaşayıram. İstəyirəm ki, yaz ayları gələr-gəlməz yenə də günümüzün çoxu “Söyüdlük”dəki futbol turnirində keçsin. Ata-baba yurdum, bu xatirələr bir deyil, beş deyil. Saymaqla bitməz. İndi sən daha başqa uşaqların xatirəsində dərin iz buraxmaqla məşğulsan.

Biz böyüdük, Vətən və dövlət qarşısındakı məsuliyyətimizi dərk etdik. Dünən uşaq bildiklərimiz bu gün öz sahəsində fərqlənən ziyalıdır, müəllimdir, həkimdir, mühəndisdir, qalib əsgərdir, zabitdir. Əsgər və zabit demişkən, sən həm də igidlər oylağısan. Ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən, şəhadət şərbətini içən Babəkin, Mübarizin, Pənahın, Şəhriyarın, 44 günlük Vətən müharibəsində Qubadlı torpağının müqəddəsliyini Qahab torpağına daşıyan, Milli Qəhrəman Şükür Həmidovla çiyin-çiyinə döyüşən Abbasəli İsmayılovun ata-baba yurdusan. İndi Qahab torpağında uyuyan şəhidlərin məzarı üstündə Azərbaycan əsgərinin səma daşı, qələbə bayrağı dalğalanır. İkinci Qarabağ müharibəsində bizə qələbəni gətirən Roman, Rahim, Xalıxverdi kimi qazi oğullarınla da öyünürsən, Qahab.



Dünən

Qahab kənd ümumi orta məktəbinin binası



Bu gün

Qahab kənd tam orta məktəbi

Bu illər ərzində təkcə biz yox, sən özün də çox dəyişmisən, inkişaf etmisən, doğma kəndim. Ötən əsrin 70-ci illərində tikilmiş yöndəmsiz məktəb binası daha tarixə qovuşub. Hansı ki biz uşaq olanda o məktəbdə istilik üzünə həsrət qalmışdıq. Hətta anamız qalın bir taxta parçasını məktəbli çantamıza yerləşdirərdi ki, dərs saatlarında soyuq döşəmədə ayağımızın üşüməməsi üçün istifadə edək. Hələ bu harasıdır, dərslikləri də valideynlər özləri alırdılar, kitabxanalar zəngin deyildi. Qış aylarında şüşələri qırıq-qırıq olmuş idman zalına girmək adamdan hünər istəyirdi. Bütün bunlar acı xatirədir. İndi Qahabda saray kimi, imarət kimi yeni məktəb binası ucaldılıb. Bir vaxtlar ağlımıza da gəlməyən, heç vaxt görmədiyimiz, xəyalını belə, qura bilmədiyimiz kompüterlər, elektron lövhəli siniflər, laboratoriyalar indi uşaqlarımız üçün əlçatandır. Gəlin etiraf edək ki, indi heç bir valideyn bazardan kitab almaq üçün əlini cibinə salmır. Uşaqlarımız isti, müasir şəraiti olan məktəbdə təhsil alırlar. Nəticə göz qabağındadır: hər il Qahab məktəbinin məzunlarından 10-15 nəfər ali və orta ixtisas təhsili məktəblərinə qəbul olur.

Ata-baba yurdum, blokadanın ilk illərində Naxçıvanın bütün yaşayış məntəqələri kimi, sən də çətin günlər yaşadın. İnsanlar əkib-biçmək, qurub-yaratmaq dərdində yox, müharibə əhvali-ruhiyyəsində, sərhəd kəndlərində düşmənə qarşı inadlı mübarizə aparmaqla məşğul idilər. Bilirsən, bu yaxınlarda yüzillik fəaliyyəti ilə, həqiqətən də, muxtar respublikamızın mətbuat salnaməsinə çevrilən “Şərq qapısı” qəzetinin arxivində maraqlı bir yazıya rast gəldim. 1991-ci ildə nəşr olunan “Sahibsiz kənd” başlıqlı məqalədə səndən, geridə qoyduğun qayğılı günlərdən bəhs olunur: “Yəqin deyəcəksiniz ki, sahibsiz kənd ola bilməz. Yox, mən demirəm ki... Sosial qayğıları olan, əhalisi diqqətdən kənarda qalan kəndə, ancaq belə ad vermək olar. Rayon mərkəzindən 14-15 kilometr aralıda yerləşən Qahab kəndi də gözdənuzaq, könüldəniraqdır. Kəndə gedən yolun vəziyyəti ilk baxışdan bu yaşayış məskəninin vəziyyəti barədə söz deyir. Yollar bir yana, adamlar su, elektrik enerjisi, qazdan istifadə edə bilmirlər”.

Sən işıqlı, nurlu günlərə müstəqillik illərində qovuşdun, yeni bir tarix yazdın, Qahab. Bu tarixin adı inkişafdır, tərəqqidir, müasirlikdir. Abad yolların, yan-yana sıralanan sosial obyektlərin gözəlliyinə gözəllik qatır. İndi insanlar iş-güc, təsərrüfat sahibidir. Heydər Əliyev Su Anbarı sol sahil kanalı əkin sahələrinə “can verir”. Hünər, İqbal, Mənsur kimi dövlətdən kredit götürüb heyvandarlıq təsərrüfatı yaradan, süd məhsullarının istehsalı ilə məşğul olan, meyvə bağı salan neçə-neçə təsərrüfat adamın var. Şəhriyar, Cavad, Təbriz, Yunis məşhur “Qahab lavaşı”nın istehsalı ilə məşğul olurlar.

*Kimsə düşünməsin ki, Qahaba tərif deməklə onu dünyanın ən yaxşı kəndi kimi təqdim etmək istəyirəm. Yox, bu fikirdən birmənalı olaraq uzağam. Şübhəsiz, Qahabdan böyük, səfalı kəndlər də var. Amma mənə görə, eləcə də minlərlə qahablıya görə dünyanın ən gözəli, yaşamalı, ömür sürməli yeri məhz Qahabdır. Çünki körpə vaxtı anamızın qulağımıza dediyi laylalar yaşayır bu kənddə ilk dəfə qədəmlərimizi yerə basıb yeriməyi, danışmağı, ünsiyyət qurmağı öyrənmişik. Bu kənddən pərvazlanıb uzağa gedənlər belə, ən azı bayramlarda Qahaba gəlir, yaxınlarının məzarını ziyarət edirlər. Bəzən sosial şəbəkələrdə Qahabla bağlı hər hansı bir paylaşım görəndə ürəyimiz qubar edir, biranlıq mənən, ruhən Qahaba gedib-qayıdırıq. Bunun adı torpağa, can məkana bağlılıqdır.*

**Muxtar RZAZADƏ**
*“Şərqin səhəri” qəzetinin redaktoru*

# Dram dərnəyində qısa müddətdə 3 tamaşa səhnələşdirilib

Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində uşaqların, gənclərin yaradıcılıq qabiliyyətini üzə çıxarmaqla yanaşı, inkişaf etdirmək üçün məqsədyönlü tədbirlərin keçirilməsi diqqət mərkəzində saxlanılır. Mərkəzin əməkdaşları ümumtəhsil müəssisələrində olur, uşaqlar üçün dərnəkləri bilavasitə özündə əks etdirən tanıtım videoları nümayiş etdirir və onlarla söhbətlər aparırlar. Bununla yanaşı, sosial şəbəkədə mərkəzin *“yaradıcılıq.merkezi”* “Instagram” səhifəsi də fəaliyyət göstərir ki, bu da uşaqların mərkəz haqqında geniş məlumat toplamalarına imkan yaradır.

2019-2020-ci tədris ilindən etibarən mərkəzdə 14 yeni innovativ dərnək, 2021-ci ildə isə mərkəzdə hər cür müasir avadanlıqlarla təchiz olunan STEAM kabinəsi yaradılıb. Hazırda mərkəzdə 5 şöbədə 44 adda dərnək fəaliyyət göstərir. Bu dərnəklərin fəaliyyəti ilə bağlı baza yaradılıb, otaqlar internet şəbəkəsinə qoşulmuş kompüter, elektron lövhələr və digər zəruri avadanlıqlarla təmin olunub.





Mərkəzin Kütləvi tədbirlər şöbəsinin tərkibində artıq iki ildir ki, fəaliyyətə başlayan dərnəklərdən biri də dram dərnəyidir. Şagirdlər bu dərnəyə cəlb edilərkən onların aktyorluq istedadı, səs diapazonu, müəyyən yaradıcılıq qabiliyyəti, hərəkət, yeriş və mimika kimi vacib olan bacarıqları nəzərə alınır. Dərnək üzvlərinə məşğələ zamanı tamaşada personajın səhnə hərəkətlərini yaratmaq, obrazın mənəvi dünyasını, onun xarakter cizgilərini göstərmək bacarığı da öyrədilir.

Dərnəkdə Azərbaycan və dünya ədəbiyyatına, şifahi xalq ədəbiyyatına, klassik və müasir ədəbiyyata, həmçinin “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil olan əsərlərə müraciət edirik.

Dərnəyin hər qrupunda 12 olmaqla, 24 üzvü var. 2019-2020-ci tədris ilindən etibarən tamaşaçılara təqdim edilən ilk səhnə əsəri vətənpərvərlik mövzusunda qələmə alınmış “Zəfər bizimlədir” adlı tamaşa olub. Tamaşamızın təqdimatı elə bir vaxta təsadüf olundu ki, biz bu tədbirlə birlikdə əsl zəfər sevincini yaşadıq. Çünki baş verən hadisələrin əksəriyyəti bu səhnədə tam əksini tapmışdı.

İkinci tamaşamız isə ssenarisini qələmə aldığım “Azərbaycanın tarix yazanları və bu tarixin şahidləri” adlı tamaşa oldu. Bir tamaşa adı altında yeddi səhnəcik hazırladıq. Xalqımızın tarix yazanları, yəni Azərbaycanın öz obrazı, bayrağı, ordusu, əsgəri, şəhidi, torpağı və bu tarixin şahidləri – xalqı, şəhid anası, əsgər anası, Azərbaycan qadını, Azərbaycan dili, sevgisi, təbiəti, nəğməsi, hətta Şuşanın simvolu olan xarıbülbül də səhnələşdirildi.

Növbəti tamaşamız Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Hüseyn Cavidin “Ana” əsəri oldu. Böyük həvəslə hazırladığımız tamaşa ilə “Məktəblilərin dram müsabiqəsi”ndə iştirak etdik və məktəbdənkənar tərbiyə müəssisələri arasında uğur qazanaraq ikinci yerə layiq görüldük.

Aprel ayının 13-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə “Ana” dramını və vətənpərvərlik mövzusunu əhatə edən “Ana, mən şəhid oldum” və “Azərbaycan qazisi” adlı səhnəcikləri məktəblilərə təqdim etdik. Tamaşaya qoyduğumuz hər üç səhnə böyük maraqla qarşılandı.

Xüsusi vurğulamaq istərdim ki, bu gün muxtar respublikamızda məktəblilərin, tələbə və gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün müxtəlif layihələrə start verilir. Bu layihələrin reallaşmasında məktəbdənkənar müəssisələr də fəallıq göstərirlər. Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi isə bu sırada öndə gedir. Artıq yay tətili günləri olduğu üçün belə ünvanlara məktəblilərin axını güclənib. Gələcəyimizi etibar edəcəyimiz gənc nəslin dövlətimizə, dövlətçiliyimizə sədaqət ruhunda tərbiyə olunmaları, sağlam böyümələri, asudə vaxtlarını səmərəli keçirmələri üçün yaradılan şəraitdən istifadə etməsində hamımız maraqlıyıq. Ona görə də şəhərimizin bütün məktəblərinin şagirdlərini mərkəzimizə dəvət edirik.

**Təranə MİRZƏYEVA**
*Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dram dərnəyinin rəhbəri*

## İtmişdir

Naxçıvan şəhər Hacıniyyət kəndində Əliyev Tural Vilayət oğluna məxsus torpağın AA-007366 inventar nömrəli plan-ölçüsü, MH-0029704 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

Quliyev Telman Nəsirulla oğlunun adına olan S.Vurğun küçəsi, ev 128-in MH-0012322 seriya nömrəli çıxarışı və 1011 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 493